# Prezidentin yeni hədəfləri

"Fevralın 14-də Milli Məclisdə Prezident İlham Əliyevin andiçmə mərasimi keçirildi. Dövlət başçısı proqram xarakterli çıxışında bir çox məqamlara aydınlıq gətirdi. Ölkə rəhbəri ilk növbədə tarixi zəfərimizlə bağlı çox mühüm qiymətləndirmələr apardı və bu qələbəni şərtləndirən amilləri təhlil etdi. Qeyd olundu ki, birlikdə olmağımız, həmrəyliyimiz, Azərbaycan Ordusunun qəhrəmanlığı, xalqımızın böyük dəstəyi sayəsində bu tarixi zəfərə imza atdıq, bütün ərazilərimizdə suverenliyimizi təmin etdik".

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Elman Nəsirov deyib. Deputat qeyd edib ki, Prezidentin fevralın 7-də seçki prosesinə məhz Xankəndidə qatılması ermənilərə və havadarlarına verilən mesaj idi. Andiçmə mərasimindəki çıxışında isə İlham Əliyev Azərbaycanla Ermənistan arasında sülh prosesi ilə bağlı məsələni diqqət mərkəzinə çəkdi və qeyd etdi ki, bu məsələdə bizim heç bir vasitəçiyə ehtiyacımız yoxdur. Biz sülh prosesi ilə bağlı beş baza prinsipi və sülh müqaviləsinin mətnini hazırlayıb qarşı tərəfə təqdim etmişik. İndi Ermənistan real addımlar atmalı və yekun sülh sazişi imzalanmalıdır. Əgər Ermənistan bu istiqamətdə real addımlar atmayacaqsa, heç bizə də sülh lazım deyil. Lakin buna görə bütün məsuliyyət Ermənistanın və havadarlarının üzərinə düşəcək.

Deputat bildirib ki, Prezident andiçmə mərasimində Azərbaycanın xarici siyasət məsələlərinə də diqqət çəkib: "Dövlətimizin başçısı qeyd etdi ki, bizim beynəlxalq təşkilatlar arasında birnömrəli tərəfdaşımız böyük coğrafiyanı əhatə edən, əhalisi və təbii ehtiyatları çox olan Türk Dövlətləri Təşkilatı olmalıdır. Ən əsası da odur ki, biz eyni soydanıq. Ona görə də bu təşkilatla əməkdaşlıq və TDT-nin möhkəmləndirilməsi bizim üçün birnömrəli prioritet olmalıdır. Həmçinin İslam Əməkdaşlıq Təşkilatı ilə əlaqələr də bundan sonra genişləndirilməli və inkişaf etdirilməlidir".

Elman Nəsirovun sözlərinə görə, Prezident, eyni zamanda ordumuzun daha da gücləndirilməsini prioritet vəzifə kimi müəyyən etdi: "Son dərəcə güclü orduya malik olmalıyıq və bugünkü dünya reallıqları göstərir ki, güclüsənsə, haqlısan. Dövlət başçısı bildirdi ki, bu gün bir çox dövlətlər bu məsələyə xüsusi önəm verirlər. Ancaq biz 20 ildir bu siyasəti həyata keçiririk və bunun sayəsində qalib gəlmişik. Zəfərə imza atmışıq və bundan sonra da hərbi quruculuq, hərbi büdcənin artırılması məsələləri diqqətdə saxlanılmalıdır. Cənab Prezident ölkəmizə qarşı daxili təhdidlərin olmadığını, amma xaricdən təzyiqlərin mövcudluğunu vurğuladı. Xarici təzyiqlər həm də ideoloji təzyiqlərlə müşayiət olunur. Bu baxımdan gənc nəslin tərbiyə edilməsi, yetişdirilməsi məsələlərini önə çəkdi. Ölkə rəhbəri vətənpərvər ruhda yetişdirilən gənclər sayəsində tarixi zəfərə imza atdığımızı, bundan sonra da bu siyasətin davam etdirilməli olduğunu, onların tərbiyəsinin ilk növbədə ailədən başladığını vurğuladı və qeyd etdi ki, ailə institutunu daha da möhkəmləndirməliyik".

E.Nəsirov bildirib ki, Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərimizin bərpasını və yenidən qurulmasını növbəti mühüm vəzifə kimi qiymətləndirib və deyib ki, bu istiqamətdə çox ciddi işlər gedir. Dövlət başçısı Qarabağ və Şərqi Zəngəzurda görülən işlər barədə də söz açıb.

Deputatın sözlərinə görə, sonda bir daha Azərbaycan-Ermənistan münasibətlərinə toxunan Prezident vurğuladı ki, biz Ermənistanla münasibətləri normallaşdırmaq istəyirik: "Prezident İlham Əliyev qeyd etdi ki, heç bir vasitəçisiz biz bunu həyata keçirmək iqtidarındayıq. Ermənistan tərəfi düşünsün və təxribatçı addımlara son qoysun. Təxribatçı davranış Ermənistan üçün həmişə ciddi problemlər yaradacaq. Ermənistanın İkinci Qarabağ müharibəsini və 19-20 sentyabr antiterror tədbirlərinin nəticələrini yaddan çıxarmağa başladığını deyən Prezident Ermənistan tərəfinə və onun havadarlarına çox ciddi mesajlar verdi".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 15 fevral, № 34.- S.9.